

Azərbaycan Respublikası İqtisadi İslahatların
Təhlili və Kommunikasiya Mərkəzi

# İXRAC İCMALI

Avqust 2021

http://ereforms.gov.az
info@ereforms.org

AZEXPORT.AZ
Made in Azerbaijan

# “MƏN DEMİŞDİM, BİZ QARABAĞI VƏ ŞƏRQİ ZƏNGƏZURU CƏNNƏTƏ ÇEVİRƏCƏYİK”.

Prezident İlham Əliyevin və birinci xanım Mehriban Əliyevanın Abşeron rayonunda şəhid ailələrinə, müharibə əlillərinə və Vətən müharibəsi qəhrəmanlarına mənzillərin və avtomobillərin təqdim olunması mərasimindən
26.08.2021



“Azad edilmiş torpaqlarda bu gün bütün bərpa işləri Azərbaycanın vəsaiti hesabına icra olunur. Biz Qarabağı və Şərqi Zəngəzuru bərpa etmək üçün xüsusi proqram qəbul etdik. Bu proqram bir neçə ili əhatə edir və birinci il - 2021-ci il üçün proqram icra olunur. Bu gün o bölgələrdə gedən quruculuq-abadlıq işləri göz önündədir. Bir çoxları üçün bu, çox gözlənilməz oldu və bəziləri təəccüb edirlər ki, biz bu işləri belə yüksək templərlə görürük. Əlbəttə, burada təkcə maliyyə vəsaiti kifayət etməz. Gərək bu genişmiqyaslı layihələri icra etmək üçün texniki imkanlar olsun, kadr potensialı olsun, daxili resurslar olsun. Biz bütün bu gücləri səfərbər etmişik və bu gün erməni vəhşiliyinin fəsadlarını aradan qaldırırıq. Mən demişdim, biz Qarabağı və Şərqi Zəngəzuru cənnətə çevirəcəyik. Biz bunu edəcəyik. Necə ki, bu günə qədər verilən bütün vədlər həyatda öz əksini tapdı, bir dənə də olsun vəd yerinə yetirilməmiş qalmadı və İkinci Qarabağ müharibəsindəki parlaq Qələbəmiz buna əyani sübutdur”.

# MÜNDƏRİCAT


Qeyri-neft sektoru üzrə ixraca dair məlumat ______ səh. 3

Qeyri-neft sektoru üzrə əsas ixracatçı subyektlərin reytinqi ______ səh. 9

2021-ci ilin yanvar-iyul aylarında "Azərkosmos" ASC 28,7 milyon ABŞ dolları dəyərində xidmət ixrac etmişdir ______ səh. 12

2021-ci ilin yanvar-iyul aylarında Azərbaycanda xaricilər bank kartları vasitəsi ilə 288,2 milyon manatlıq əməliyyat aparmışlar ______ səh. 13

Azexport.az portalına 2021-ci ilin yanvar-iyul aylarında 283,6 milyon ABŞ dolları məbləğində ixrac sifarişi daxil olmuşdur ______ səh. 15

2021-ci ilin avqust ayında "Bir Pəncərə" İxraca Dəstək Mərkəzindən 30 milyon ABŞ dolları dəyərində qeyri-neft ixracı həyata keçirilmişdir ______ səh. 18

# 1

# QEYRİ-NEFT SEKTORU ÜZRƏ İXRACA DAİR MƏLUMAT

2021-ci ilin **yanvar-iyul ayları** ərzində Azərbaycanın **ixracı** **11,4 milyard ABŞ dolları** dəyərində olmuşdur

2021-ci ilin **yanvar-iyul aylarında** qeyri-neft sektoru üzrə ixrac **1,4 milyard ABŞ dolları** təşkil etmişdir

2021-ci ilin 7 ayı ərzində Azərbaycanın ixracı **11,4 milyard ABŞ dolları** olub. Qeyri-neft sektoru üzrə **1,4 milyard ABŞ dolları** dəyərində ixrac reallaşdırılıb. Qeyri-neft sektoru üzrə ixrac 2020-ci ilin müvafiq dövrü ilə müqayisədə **316,7 milyon ABŞ dolları** və ya **30,5 faiz** artıb. 2021-ci ilin 7 ayı ərzində qeyri-neft ixracında meyvə-tərəvəz məhsulları 338 milyon ABŞ dolları ilə əsas paya malik olub. Müvafiq dövr ərzində qeyri-neft ixracında qara metallar və onlardan hazırlanan məmulatlar **2,4 dəfə**, pambıq iplik **2,8 dəfə**, şəkər **2,3 dəfə**, kimya sənayesi məhsulları **37%**, pambıq lifi **88,5%**, alüminium və ondan hazırlanan məmulatlarda isə **42%** artım qeydə alınıb.

Normallaşma prosesinin davam etdiyi dövrdə iyul ayı üzrə xarici ticarət həcmi **2,6 milyard ABŞ dolları** təşkil edib. Qeyri-neft sektoru üzrə ixracda artım **55,7 faiz** təşkil etməklə 192 milyon ABŞ dolları olub. 2021-ci ilin iyul ayı ərzində yeyinti məhsulları üzrə ixrac ötən ilin müvafiq ayı ilə müqayisədə **6%** artaraq **43 milyon ABŞ dolları**, qeyri-yeyinti məhsulları üzrə isə **80,1%** artaraq **149 milyon ABŞ dolları** təşkil edib.

2021-ci ilin yanvar-iyul ayları ərzində ixrac edilən qeyri-neft sektoruna aid malların siyahısında pambıq mahlıcı (133,8 milyon ABŞ dolları)

birinci olub. Bu siyahıda pomidor (tomat) (128,2 milyon ABŞ dolları) ikinci, qızıl (116,9 milyon ABŞ dolları) isə üçüncü yerdə qərarlaşıb.

2021-ci ilin yanvar-iyul ayları ərzində Rusiyaya **467,9 milyon**, Türkiyəyə **359,3 milyon**, İsveçrəyə **129,5 milyon**, Gürcüstana **94 milyon** və ABŞ-a **33,7 milyon ABŞ dolları** dəyərində qeyri-neft sektoruna aid mal ixrac olunub.

2021-ci ilin iyul ayında qeyri-neft sektoruna aid ən çox mal ixrac edilən ölkələrin siyahısında Rusiya (64 milyon ABŞ dolları) birinciliyə yüksəlib. Bu siyahıda Türkiyə ikinci (49,9 milyon ABŞ dolları) və Gürcüstan üçüncü (13,9 milyon ABŞ dolları) olub.

2021-ci ilin iyul ayı ərzində ixrac edilən qeyri-neft sektoruna aid malların siyahısında ilkin formalı polipropilen (15 milyon ABŞ dolları) birinci, azot gübrələr (12,7 milyon ABŞ dolları) ikinci və şaftalı (12,2 milyon ABŞ dolları) üçüncü olub.

MADE IN AZERBAIJAN

2021-ci ilin **YANVAR-İYUL AYLARINDA** qeyri-neft sektoru üzrə **5 ƏSAS İXRAC ÖLKƏSİ**
(2020-ci ilin eyni dövrü ilə müqayisədə, milyon ABŞ dolları ilə)

2021 İXRAC İCMALI AVQUST






Azərbaycan Respublikası İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzi

## 2021-ci ilin **İYUL AYINDA** qeyri-neft sektoru üzrə **5 ƏSAS İXRAC ÖLKƏSİ**
(2020-ci ilin eyni dövrü ilə müqayisədə, milyon ABŞ dolları ilə)



# 2021-ci ilin **YANVAR-İYUL AYLARINDA** ixrac olunan əsas **QEYRİ-NEFT MALLARININ SİYAHISI**
(2020-ci ilin eyni dövrü ilə müqayisədə, milyon ABŞ dolları ilə)

2021 İXRAC İCMALI AVQUST

**Pambıq mahlıcı**
2021 133,8
2020 70,6


**Tomat (pomidor)**
2021 128,2
2020 46,7


**Qızıl**
2021 116,9
2020 95,6


**İlkin formalı polipropilen**
2021 66,9
2020 46,7


**İlkin formalı polietilen**
2021 59,2
2020 28,1


2021 41,5
2020 56,4

**Qabığı təmizlənmiş meşə fındığı**

2021 39,9
2020 33,8

**Kartof**

2021 34,4
2020 17,5

**Digər yağlar və məhsullar**

2021 33,0
2020 42,6

**Elektrik enerjisi**

2021 700,6
2020 445,2

**Digər**

## 2021-ci ilin **İYUL AYINDA** ixrac olunan əsas **QEYRİ-NEFT MALLARININ SİYAHISI**
(2020-ci ilin eyni dövrü ilə müqayisədə, milyon ABŞ dolları ilə)

İXRAC İCMALI 2021 AVQUST

| Mal | | 2021 | 2020 |
|---|---|---|---|
| İlkin formalı polipropelin |  | 15,0 | 6,8 |
| Azot gübrə |  | 12,7 | 7,4 |
| Şaftalı |  | 12,2 | 4,5 |
| Pambıq mahlıcı |  | 11,8 | 12,1 |
| Metanol (metil spirti) |  | 11,3 | 3,9 |
| Xüsusi kütləsi 0,94-dən az olan ilkin formalı polietilen |  | 9,3 | 3,7 |
| Qızıl |  | 9,0 | 10,7 |
| Xüsusi kütləsi 0,94-dən çox olan ilkin formalı polietilen |  | 6,3 | 6,8 |
| Digər yağlar və məhsullar |  | 6,0 | 1,7 |
| Digər |  | 93,0 | 54,5 |

2

# QEYRİ-NEFT SEKTORU ÜZRƏ ƏSAS İXRACATÇI SUBYEKTLƏRİN REYTİNQİ

## 2021-ci ilin yanvar-iyul aylarında qeyri-neft sektoru üzrə əsas ixracatçı subyektlərin reytinqi

2021-ci ilin yanvar-iyul ayları üzrə hazırlanan qeyri-dövlət ixracatçı subyektlərin reytinqində ilk onluqda aşağıdakı şirkətlər təmsil olunurlar: "MKT İstehsalat Kommersiya" MMC, "Azərbaycan İnterneyşnl Mayninq Kompani Limited Şirkəti"nin Azərbaycan Respublikasındakı nümayəndəliyi, "Local Garden", "P-Aqro" MMC, "Baku Steel Company" MMC, "Sun Food" MMC, "Azərbaycan Şəkər İstehsalat Birliyi" MMC, "Ram Beynəlxalq Nəqliyyat və Ticarət LTD" MMC, “FruitLand" MMC və Cəfərov İlqar Südgül oğlu.

Qeyri-neft sektoru üzrə ixrac əməliyyatlarında iştirak edən dövlətə məxsus olan şirkətlərin siyahısına isə Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin “Marketinq və İqtisadi Əməliyyatlar İdarəsi” başçılıq edir. Daha sonra bu siyahıda aşağıdakı şirkətlər təmsil olunurlar: “Socar Polymer" MMC, "Azergold" QSC, "Azəralüminium" MMC, "Azərpambıq Aqrar Sənaye Kompleksi" MMC, "Azərenerji" ATSC, "Azəripək" MMC, "Azərbaycan Dəmir Yolları" QSC, "Caspian Geo" MMC, "Naxçıvan MR Dövlət Energetika Xidməti".

Bu ixracatçıların reytinqi ilə bağlı məlumatla təqdim olunan infoqrafikalardan tanış ola bilərsiniz.



## 2021-ci ilin **YANVAR-İYUL AYLARINDA** qeyri-neft sektoru üzrə **QEYRİ-DÖVLƏT İXRACATÇI SUBYEKTLƏRİN REYTİNQİ** (Ötən ilin eyni dövrü ilə müqayisədə, ABŞ dolları ilə)



# 2021-ci ilin **YANVAR-İYUL AYLARINDA** qeyri-neft sektoru üzrə **DÖVLƏTƏ MƏXSUS ƏSAS İXRACATÇI SUBYEKTLƏRİN REYTİNQİ** (Ötən ilin eyni dövrü ilə müqayisədə, ABŞ dolları ilə)

2021 İXRAC İCMALI AVQUST




* "Socar Polymer" MMC dövlət-özəl sektor tərəfdaşlığı nəticəsində yaranan müəssisədir.

# 2021-ci ilin **YANVAR-İYUL AYLARINDA "AZƏRKOSMOS" ASC 28,7 MİLYON ABŞ DOLLARI** dəyərində **XİDMƏT İXRAC ETMİŞDİR**

2021 İXRAC İCMALI AVQUST



2021-ci ilin yanvar-iyul aylarında "Azərkosmos" ASC tərəfindən dünyanın **31 ölkəsinə 28,7 milyon ABŞ dolları** dəyərində xidmət (peyk telekommunikasiya xidmətləri və optik peyk xidmətləri) ixrac edilmişdir.

"Azərkosmos" ASC-nin xidmət ixracından əldə etdiyi gəlir onun ümumi gəlirlərinin 92 faizini təşkil etmişdir. 2021-ci ilin iyul ayında isə "Azərkosmos" ASC dünyanın **24 ölkəsinə 6,7 milyon ABŞ dolları** dəyərində xidmət ixrac etmişdir.




## 2021-ci ilin yanvar-iyul aylarında "Azərkosmos" ASC-nin xidmət ixrac etdiyi 5 əsas ölkə

- ABŞ — 9,6 mln $
- Birləşmiş Krallıq — 5,8 mln $
- Fransa — 5,6 mln $
- Malayziya — 3,7 mln $
- BƏƏ — 1 mln $



2021-ci ilin **yanvar-iyul aylarında** Azərbaycanda **xaricilər bank kartları vasitəsi ilə** **288,2 milyon** manatlıq əməliyyat aparmışlar

Koronovirus (COVID-19) pandemiyası ilə bağlı yaranmış vəziyyət digər ölkələrdə olduğu kimi, Azərbaycanın da turizm sektoruna təsirsiz ötüşməyib.

2021-ci ilin iyul ayında xarici vətəndaşların bank kartları vasitəsi ilə ölkəmizdə apardıqları əməliyyatların həcmi **95,1 milyon manat** təşkil edib. 2021-ci ilin yanvar-iyul aylarında isə əcnəbilər bank kartları vasitəsi ilə **288,2 milyon manatlıq** əməliyyat aparıblar.

Bu barədə daha ətraflı məlumat təqdim olunan infoqrafikada verilmişdir.

Azərbaycana gələn **XARİCİ VƏTƏNDAŞLARIN BANK KARTLARI VASİTƏSİ** ilə apardıqları əməliyyatlar (milyon manatla)



| 2019 | 2020 | 2021 |
|---|---|---|
| Yanvar - **88,3** | Yanvar - **85,2** | Yanvar - **25** |
| Fevral - **85,3** | Fevral - **72,9** | Fevral - **25,5** |
| Mart - **98** | Mart - **53,9** | Mart - **33,4** |
| Aprel - **103,2** | Aprel - **19,7** | Aprel - **28,3** |
| May - **100,9** | May - **24,3** | May - **32,6** |
| İyun - **115,1** | İyun - **23,7** | İyun - **48,3** |
| İyul - **134,6** | İyul - **24** | İyul - **95,1** |
| **Cəmi - 725,4** | **Cəmi - 303,7** | **Cəmi - 288,2** |

3

# AZEXPORT.AZ PORTALINA 2021-Cİ İLİN YANVAR-İYUL AYLARINDA 283,6 MİLYON ABŞ DOLLARI MƏBLƏĞİNDƏ İXRAC SİFARİŞİ DAXİL OLMUŞDUR

Portala daxil olan ixrac sifarişlərinin **ümumi dəyəri** **2 milyard 479 milyon** ABŞ dolları təşkil etmişdir

2021-ci ilin iyul ayında isə portala daxil olan ixrac sifarişlərinin dəyəri **47 milyon ABŞ dolları** təşkil edib.

2021-ci ilin yanvar-iyul aylarında Azexport.az portalına **283,6 milyon ABŞ dolları** dəyərində ixrac sifarişləri daxil olub. 2021-ci ilin iyul ayında Azexport.az portalına ən çox ixrac sifarişi pambıq mahlıcı, toyuq əti, tütün, pambıq toxumu, noxud, meyvə tamlı süd, tikinti materialı, toyuq yumurtası, çay, şərab, nar şirəsi, bitki yağı, biyan kökü, şirniyyat, tibbi zəli və s. mallara daxil olmuşdur.

Məlumat üçün qeyd edək ki, 2017-ci ilin yanvar ayından 2021-ci ilin 31 iyul tarixinə kimi (55 ay ərzində) Azexport.az portalına dünyanın 145 ölkəsindən  daxil olan ixrac sifarişlərinin dəyəri **2 milyard 479 milyon ABŞ dolları** təşkil edib.

# **AZEXPORT.AZ PORTALINA** daxil olan **İXRAC SİFARİŞLƏRİNİN MƏBLƏĞİ**

2021 İXRAC İCMALI AVQUST




2017-ci il - **475 mln $**

2018-ci il - **514,1 mln $**

2019-cu il - **595,7 mln $**

2020-ci il - **610,8 mln $**

2021-ci il

Yanvar - **53,9 mln $**

Fevral - **35,3 mln $**

Mart - **42 mln $**

Aprel - **33 mln $**

May - **30,1 mln $**

İyun - **42,3 mln $**

İyul - **47 mln $**

---

2021-ci il - **283,6 mln $**



Son **55 ay** ərzindəki sifarişlərin cəmi - **2 479,2 mln $**

# 2021-ci ilin İYUL AYINDA AZEXPORT.AZ PORTALINDAN İXRAC SİFARİŞİ ALAN ƏSAS MALLAR

Tütün



Fındıq ləpəsi



Badımcan



Buğda kəpəyi



Pambıq



Quru süd



Pomidor



Pambığ yağı



Toyuq əti



Yumurta



Alma



Pambıq toxumu



4

# 2021-Cİ İLİN AVQUST AYINDA “BİR PƏNCƏRƏ” İXRACA DƏSTƏK MƏRKƏZİNDƏN 30 MİLYON ABŞ DOLLARI DƏYƏRİNDƏ QEYRİ-NEFT İXRACI HƏYATA KEÇİRİLMİŞDİR

“Bir Pəncərə” İxraca Dəstək Mərkəzinə 2021-ci ilin avqust ayı ərzində hüquqi və fiziki şəxslər tərəfindən 159 dəfə müraciət daxil olmuşdur. Ümumilikdə **175 ədəd sertifikat** (128 ədəd mənşə, 35 ədəd baytarlıq, 12 ədəd CİTES) verilib.

Cari ilin avqust ayı ərzində “Bir Pəncərə” İxraca Dəstək Mərkəzi vasitəsilə **30 milyon ABŞ dolları** dəyərində ixrac həyata keçirilmişdir. Hüquqi və fiziki şəxslər tərəfindən qiymətli külçələr, qurğuşun, nar, alma, şaftalı, albalı şirələri, qarışıq şirələr, nar konsentrantı, narşərab, rakı, spirtli içkilər, pambıq mahlıcı, pambıq çiyidi, pambıq çiyidinin cecəsi, tibbi zəli, yonca, biyan kökü, iri və xırdabuynuzlu heyvanların daxili orqanları, iribuynuzlu heyvan dərisinin sənayedə kəsilməsi nəticəsində yığılan faydasız tullantılar, dondurulmuş toyuq ayaqları, krast olunmuş heyvan dərisi, iribuynuzlu heyvan bağırsağı, pendir, işlənmiş katalizator, oksigen maye qazı, stretç-plyonka, polad armatur yayması, polad məftil, polad boru, Dağıstan turunun ixracı həyata keçirilib.

Yuxarıda adı çəkilən məhsullar arasında qiymətli külçələr-36,9%, pambıq mahlıcı- 31,9%, polad armatur yayması- 25,2%, pendir- 3,1%, meyvə şirələri-1% ixracı üstünlük təşkil etmişdir. Sertifikat verilən məhsullar 20 ölkəyə ixrac edilmişdir. İxracın Avropa ölkələrinə (Almaniya, İsveçrə, İtaliya, Polşa, Kipr, Xorvatiya) düşən payı-38,5%, Türkiyəyə düşən payı-33,3%, MDB ölkələrinə (Qazaxıstan, Özbəkistan, Rusiya, Belarus) düşən payı-10,2%, ABŞ-a düşən payı-0,8% təşkil edir. O cümlədən, Gürcüstan, Ukrayna, Misir, İran, Tacikistan, Honq-Konq, Sinqapur, Azərbaycan (Duty Free) ixrac reallaşdırılmışdır. İxrac olunan məhsulların avtomobil nəqliyyatı ilə-54,8%, hava nəqliyyatı ilə-37,8%, dəmiryolu nəqliyyatı ilə-6,2%, qarışıq nəqliyyat ilə ixrac isə-1,2% təşkil edir.

Ixrac statistikasına nəzər yetirdikdə 2020-ci ilin avqust ayı ilə müqayisədə ixracda **18.4 milyon ABŞ dolları** dəyərində artım müşahidə olunmuşdur.

2017-ci ildən 2021-ci ilin avqust ayına qədər “Bir Pəncərə” İxraca Dəstək Mərkəzi vasitəsilə ixrac edilən mal və məhsulların dəyəri **625 milyon ABŞ dolları** təşkil edib.

# 2021-ci ilin **AVQUST AYINDA** “Bir Pəncərə” İxraca Dəstək Mərkəzi vasitəsilə həyata keçirilən **İXRACIN STATİSTİKASI** (milyon ABŞ dolları ilə)



## Cari ilin **AVQUST AYINDA "Bir Pəncərə" İxraca Dəstək Mərkəzinin** təqdim etdiyi **SERTİFİKATLARIN ÖLKƏLƏR ÜZRƏ BÖLGÜSÜ**

**AVROPA ÖLKƏLƏRİ**
(Almaniya, İsveçrə, İtaliya, Polşa, Kipr, Xorvatiya )
**38,5%**

**TÜRKİYƏ**
**33,3%**




**ABŞ**
**0,8%**

**MDB ÖLKƏLƏRİ**
(Qazaxıstan, Özbəkistan, Rusiya, Belarus)
**10,2%**

# Cari ilin **AVQUST AYINDA "Bir Pəncərə" İxraca Dəstək Mərkəzi** vasitəsilə **ƏN ÇOX İXRAC OLUNAN MƏHSULLARIN BÖLGÜSÜ**



# Cari ilin **AVQUST AYINDA “Bir Pəncərə” İxraca Dəstək Mərkəzi** vasitəsilə ixrac edilən məhsulların **NƏQLİYYAT ÜZRƏ BÖLGÜSÜ**



**İQTİSADİ İSLAHATLARIN TƏHLİLİ VƏ KOMMUNİKASİYA MƏRKƏZİNİN**
**"BİR PƏNCƏRƏ" İXRACA DƏSTƏK MƏRKƏZİ**


AZ 1073, Bakı ş., Yasamal r., Q. Xəlilov küç., 47
47, Khalilov str., Yasamal district, Baku
Баку, Ясамальский район, ул. Г. Халилова, 47

Tel.: (+994 12) 521 25 35
E-mail: info@ereforms.org

www.iqtisadiislahat.org
www.ereforms.org
www.ecoreform.az

/iqtisadiislahat
/BİR PƏNCƏRƏ İxraca Dəstək Mərkəzi








Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi tərəfindən
"İxrac İcmalı" jurnalı 11 yanvar 2018-ci il tarixində
N4160 nömrəsi ilə mətbu nəşrlərin reyestrinə
daxil edilmişdir.


http://ereforms.gov.az

/iqtisadiislahat


Bakı, Yasamal rayonu,
Q. Xəlilov küçəsi 47, AZ 1073
Tel.: (+ 994) 12 521 25 35
info@ereforms.org